İSTANBUL TÜRKİYAT İNSTİTUTU VƏ TÜRKOLOGİYA

İlhamə ŞIXIYEVA*

Özət: Türkiyə Cümhuriyyətinin qurulmasından dərhal sonra M.K. Atatürk türk dili, türk ədəbiyyatı, türk tarixi, türk incəsənəti, türk etnoqrafiyası, türk coğrafiyası sahəsində araşdırmalar aparmaq və bunların nəticələrini elm aləminə çatdırmaq üçün bir institut yaratmaq istəyirdi. Ulu öndərin 1924-cü il 12 noyabr qərarına əsasən, belə bir akademik qurum, İstanbul Universitetinin nəzdində Türkşünaslıq İnstitutu yaradıldı və tanınmış türkoloq M.F.Köprülü institutun ditektoru təyin edildi. Tezliklə M.F.Köprülünün təşkilarçılığı ilə Türkşünaslıq İnstitunun kitabxanasını yaratmaq üçün türk dili, ədəbiyyatı, tarixi, incəsənəti, coğrafiyası, etnoqrafiyası və türkologiyanın müxtəlif mövzularını əhatə edən bəzi əlyazmalar, kitablar, jurnallar Türkologiya kitabxanasına gətirilməyə başlanıldı. Kitabxananın əsas fondunu Şərq dilləri üzrə tədqiqatçı, xakas türklərindən olan rus türkoloqu, şərqşünas və folklorşünas Nikolay Fyodoroviç Katanovdan 3000 qızıla alınmış 7325 cildlik kitabxana təşkil edirdi. 1925-ci ildə Türkşünaslıq İnstitutunun "Türkiyət" jurnalı nəşr olundu. Jurnalda Türk dili, türk ədəbiyyatı, türk tarixi, türk coğrafiyası və digər sahələrlə bağlı yerli və xarici alimlərin rəy və araşdırmaları, həmçinin Avropada, Asiyada türkoloji araşdırmalara dair xəbərlər, dəyərli məqalələr beynəlxalq standartlara uyğun şəkildə dərc olunurdu. Hal-hazırda məcmuədə türk, Azərbaycan, qazax, qırğız, özbək, türkmən, tatar, eləcə də Avropa dillərində, fransız, alman, ingilis, rus dillərində türkoloji sahə üçün əhəmiyyətli məqalələr mütəmadi şəkildə nəşr olunur.

Açar Sözlər: *Mustafa Kemal Atatürk, M. Fuat Köprülü, Türkiyat İnstitutu, Türkiyyət Məcmuəsi, Türkologiya*

Istanbul Turkish Institute and Turkology

Abstract: Immediately after the establishment of the Republic of Turkey, M.K. Atatürk wanted to create an institute to conduct research in the field of Turkish language, Turkish literature, Turkish history, Turkish art, Turkish ethnography, Turkish geography and to convey their results to the world of science. According to the decision of the great leader on November 12, 1924, such an academic institution, the Institute of Turkic Studies was established under Istanbul University, and the famous Turkologist M.F. Köprülü was appointed as the director of the institute. Soon, under the organization of M.F. Köprülü, some manuscripts, books, magazines covering various subjects of Turkish language, literature, history, art, geography, ethnography and Turkology were brought to the library of Turkology to create the library of the Institute of Turkic. The main stock of the library consisted of a library of 7325 volumes bought for 3000 gold from Nikolay Fyodorovich Katanov, a researcher of Oriental languages, a Russian Turkologist from the Khakas Turks, an orientalist and a folklorist. In 1925, the "Turkiyet" magazine of the Institute of Turkic Studies was published. The magazine published opinions and researches of local and foreign scholars on Turkish language, Turkish literature, Turkish history, Turkish geography and other fields, as well as news and valuable articles on Turkological research in Europe and Asia in accordance with international standards. Currently, important articles for Turkology are regularly published in the collection in Turkish, Azerbaijani, Kazakh, Kyrgyz, Uzbek, Turkmen, Tatar, as well as European languages, French, German, English, and Russian.

Key Words: *Mustafa Kemal Atatürk, M. Fuat Köprülü, Turkish Institute, Turkish Collection, Turkology*

Giriş

Türkiyə Cümhuriyyətinin qurulandan sonra M.K. Atatürk türk dili, türk ədəbiyyatı, türk tarixi, türk incəsənəti, türk etnoqrafiyası və digər sahələrlərdə araşdırmalar aparmaq və bunların nəticələrini elm aləminə çatdırmaq üçün 1924-cü il 12 noyabr qərarını verdi.İstanbul Universitetinin nəzdində Türkiyat İnstitutu yaradıldı və tanınmış türkoloq M.F.Köprülü institutun ditektoru təyin edildi.Tezliklə M.F.Köprülünün təşkilarçılığı ilə bu institunun kitabxanası quruldu, dünyanın məşhur türkoloqları ilə əlaqələr yaradıldı. "Türkiyyət" məcmuəsi nəşr oundu. Beynəlxalq aləmdə türkoloji ədəbiyyatlar türk dilinə tərcümə edildi, sanballı tədqiqatlar aparıldıTürkiyə Cümhuriyyətinin qurucusu M.K.Atatürk hakimiyyətinin ilk illərindən cəmiyyətin müxtəlif sahələrini əhatə edən mühüm islahatlar aparmışdır. Ulu öndərin dil və yazı ilə bağlı gördüyü əhəmiyyətli işlərdən biri əlifbanın dəyişdirilməsi oldu. Osmanlı dövlətində XIX əsrdən əlifba islahatı ilə bağlı başlanmış müzakirələrə son qoyuldu, yeni əlifba, latin qrafikası əsasında türk əlifbası yaradıldı. Ulu öndər dil və yazı məsələlərinə hələ gənc ikən böyük diqqət vermış,1907-ci ildə bolqar türkoloqu İvan Manolofla əlifba

* Fil.ü.f.d., Bakı Avrasiya Universiteti, ilhame.shixiyeva@bk.ru, ORCID: 0000-0003-3705-9229

DOI :10.30546/100981.1.2024.0261

dəyişməsinin zərurət olması haqqında müzakirələr aparmışdır (Akalın, 2004: 28). Onun türk dili ilə bağlı gördüyü işlər, Türk Dil Qurumunun yaradılması, Günəş Dil nəzəriyyəsi Türkiyə üçün önəmlidir. Cümhuriyyətinin qurulmasından dərhal sonra M.K. Atatürkün göstərişi ilə türk mədəniyyətinin bütün sahələrində araşdırmalar aparılmağa başlanıldı. Eyni zamanda ulu öndər türk mədəniyyəti tarixində çox mühüm işlərə imza atdı.Türkiyə Cümhuriyyətinin qurulmasından dərhal, 4-5 gün sonra Ulu öndər mədəniyyətinin bütün sahələrində araşdırmalar aparılması üçün bir akademik qurumun yaradılması barədə göstərişlər verdi. Cümhuriyyətin qurucusu türk dili, türk ədəbiyyatı, türk tarixi, türk incəsənəti, türk etnoqrafiyası, türk coğrafiyası sahəsində tədqiqatlar aparmaq və bunların nəticələrini elm aləminə çatdırmaq üçün bir institut yaratmaq istəyirdi O, bu məqsədlə M.F.Köprülünü yanına çağıraraq ona bildirdi ki, qurduğumuz cümhuriyyəti elmi təməllər üzərində inkişaf etdirməliyik. Bunun üçün İstanbul Universitetinin nəzdində Türkşünaslıq İnstitutunu qurmalıyıq. M.F.Köprülü Türkiyə cümhuriyyətinin yaradıcısının təlimatına əsasən, İstanbul universitetində 10 aylıq hazırlıq işləri görüb, bu haqda Ulu öndərə hesabat təqdim edir (Akalın, 2004: 29).

Beləlikə, İstanbul Universitetinin ədəbiyyat fakültəsinin nəzdində Tükiyat İnstitutunun yaradılması qərara alındı. M.K.Atatürkün 1924-cü il 12 noyabr 1111-ci qərarına əsasən, Təhsil nazirliyinin təlimatı ilə İstanbul Universitetinin ədəbiyyat fakültəsinin nəzdində Tükiyat İnstitutunun yaradıldı. Bu İnstitutun direktoru M.F.Köprülü təyin edildi (Özkan, 2006: 586).

Türkiyat İnstitutu ilk fəaliyyətinə İstanbul Universitetinin mərkəzi binasının girişindəki bu gün "Professorlar evi" adlanan binada başlamış və 1948-ci ilə qədər fəaliyyətini burada davam etdirmişdir. Türkşünaslıq İnstitutu 1948-ci ildə Həsən Paşanın tikdirdiyi İstanbul Universitetinin Ədəbiyyat fakültəsinin yanındakı Həsən Paşa mədrəsəsinə köçürülmüşdür.Lakin bu bina türkiyyət institutun fəaliyyəti üçün o qədər də əlverişli deyildi. 1989-cu ildə Türkşünaslıq İnstitutu Fatih parkı ilə üzbəüz Horhorda, onun üçün xüsusi olaraq tikilmiş sahəsi 2000 m2 olan Suphi Paşa Konağı yanındakı beşmərtəbəli binaya köçürülmüş, indiyə qədər fəaliyyətini burada davam etdirməkdədir (Özkan, 2006: 587).

İnstitutun fəaliyyət proqramına aşağıdakılar aid edilmişdi:1.Türk dili və ədəbiyyatına dair əsas qaynaqlar araşdırılaraq nəşr olunmalı; 2.Türk dili mətnləri əsasında türk dili qrammatikası və lüğətinin hazırlanması; 3.Türk folklor ədəbiyyatı toplamaq; 4.Türk mədəniyyəti, xüsusilə dili, ədəbiyyatı və tarixi ilə bağlı tədqiqatların aparılması; 5.Türk mədəniyyəti ilə bağlı xarici dillərdə nəşr olunmuş elmi ədəbiyyatı türk dilinə çevirmək; 6.Türk mədəniyyətinə aid xaricdə nəşr olunmuş nəşrlərin biblioqrafiyasını hazırlamaq; 7. Burada xüsusi türkologiya kitabxanasının yaradılması və türk mədəniyyətinə aid nəşrlərin toplanması, həmçinin qiymətli əlyazmaların, mikrofilm və surətlərindən ibarət arxivin yaradılması; 8. İnstitutda aparılan tədqiqatların nəticələrini mütəmadi olaraq dərc etmək; 9. Türk mədəniyyəti araşdırmalarını xaricdə təbliğ etmək üçün Türkşünaslıq jurnalını nəşr etmək; 10. Daxildə və xaricdə türk mədəniyyəti sahələrində çalışan elm adamları və təşkilatlarla əməkdaşlıq yaratmaq; Konqres və seminarlar təşkil etmək (Özkan, 2006: 586).

Türkiyat İnstitunda ilk araşdırmalar Raqıp Hulusi macar, Əhməd Caferoğlu, Abdülkadir İnann və Həsən Ortekin rus, Kıvamettin Burslan və Kilisli Rıfətın ərəb dilində dünya mətbuatını diqqətlə izləyərək türkologiya aid mətnləri türk dilinə tərcümə mətnlərindən ibarət olmuşdur. Türkşünaslıq İnstitutunun ən fəal dövrü M.F.Köprülünnün direktor olduğu dövrdür. Əhməd Caferoğlu xatirələrində yazır ki, o, gözlədiyimdən daha çalışqan və aktiv idi, günlərlə iş masasından ayrılmaz, elmi işini tamamlamağa çalışardı. Türkşünaslıq İnstitutu arı pətəyi kimi işləyirdi. Səhər doqquzdan axşama kimi elm öyrənmək üçün gəlib gedənlərin sayı bilinməzdi. Türkologiya ilə maraqlananlar həmişə ustadın ətrafına toplaşar, tez-tez müxtəlif seminar xarakterli müzakirələr təşkil olunardı (Özkan, 2006: 588).

Mustafa Kamal Atatürkün təklifi ilə yaradılmış institutda ciddi elmi araşdırmalar aparmaq üçün xüsusi Türkologiya kitabxana, burada türk mədəniyyətinə, incəsənətinə dair ədəbiyyatları toplamaq, qiymətli əlyazmaların mikrofilm və surətlərindən ibarət arxiv yaratmaq əsas məqsədlərdən biri idi. İnstitut yarandığı ilk dövrdən bu məqsədə uyğun olaraq türk dili, ədəbiyyatı, tarixi, incəsənəti, coğrafiyası, etnoqrafiyası və türkologiyanın müxtəlif mövzularını əhatə edən bəzi əlyazmalar, kitablar, tezislər və bəzi jurnallar Türkologiya kitabxanasına gətirilməyə başlanılmışdı. Şərq dilləri üzrə tədqiqatçı, xakas türklərindən olan rus türkoloqu, şərqşünas və folklorşünas Nikolay Fyodoroviç Katanovdan alınmış 7325 cildlik kitabxana kitabxananın əsas fondunu əsasını təşkil edirdi. Dahi türkoloq Katanov sağlığında şəxsi kitabxanasını Azərbaycan Cümhuriyyətində yaradılacaq Elmlər Akademiyasının Türkologiya şöbəsinə təqdim edəcəyini bildirmişdi. Lakin Azərbaycan Xalq Cümhuriyyəti zamanda süquta uğradı (Nikolay Katanov – https://az.wikipedia.org/wiki/Nikolay Katanov). 1922-ci idə N.Katanov dünyasını dəyişdikdən sonra görkəmli türkoloqun xanımı onun kitabxanasını satışa çıxartdı. Türkiyənin səlahiyyətli nümayəndiliyi Katanovun şəxsi kitabxanası üçün 3000 qızıl pul ödəyərək türkologiya dair rus və diğər dillərdə nəşr olunmuş kitabxananı aldı (Özkan, 2006: 588). 1955-ci ildə Musiqişünas Hüseyn Sadettin Arel tərəfindən bağışlanan Türk musiqi tarixinə aid kitablar İnstitutun kitabxanasının aparıcı kolleksiyalarından birinidir. Bundan başqa, 1968-ci ildə Hamit Ongunsu, 1971-ci ildə Halit Ziya Uşaklıgil, 1973-cü ildə Azərbaycan Sultan Bəyi və prof. Ahmet Hamdi Tanpınar, 1980-ci ildə Mehmet Behçet Yazar, 2000-ci illərdə prof. Osman Nedim Tuna, prof. Muharrem Ergin və prof. Oktay Aslanapanın kolleksiyaları kitabxananın fonduna daxildir. Kitabxanada, həmçinin İstanbul Universiteti Ədəbiyyat Fakültəsi Türk Dili və Ədəbiyyatı bölməsində yazılmış buraxılış, magistr və doktorluq dissertasiyalar da arxivə aiddir.1931-ci ildə 10.000-dən çox kitaba malik olan kitabxanada hazırda 60.000-dən çox kitab var (Özkan, 2006: 588).

Türkiyyət İnstitutunun ilk direktoru dünya şöhrətli türkoloq, ədəbiyyatşünas, tarixçi, siyasətçi M.F. Köprülü olmuşdur. O, yeni dövlət qurulmadan öncə 1908-ci ildə Türk dərnəyinin, 1911-ci ildə Türk Yurdu Cəmiyyətinin, 1912-ci ildə Türk ocağı kimi toplumlarının fəal üzvü olmuş, 1912-ci ildə yeni türkçülük ideyalarını "Türklük və yeni dil" məqaləsində ifadə etmişdir (Akun, 2003: 473).

Cümhuriyyət qurulandan sonra dahi alim bu dövlətin idealogiyasını dəstəkləyən məqalələrini "Türk yurdu", "Həyat" dərgilərində nəşr etdirmiş, cümhuriyyətin maarifçilik siyasətini həyata keçirən Elmi heyətin üzvü olmuş, həmçinin elmi məqalələr yazmış, islahatların keçirilməsində iştirak etmişdir.

Dünya şöhrətli alim Ə.Yəsəvini elm aləminə tanıtmış, Y.Əmrə ilə bağlı daha ciddi və dərin tədqiqatlar aparmışdır. "Türk ədəbiyyatnda ilk mütəsəvviflər" kitabı ilə türkologiyada böyük şöhrət qazanmış, bu dönəmdə araşdırmalarını üç istiqamətdə, 1.Türk ədəbiyyatında aşıq ədəbiyyatı və təkamülü. 2.Türk ədəbiyyatının mənşəyi. 3.Səlcuqlar dövründə Anadoluda türk sivilizasiyası, aparmışdı. Birinci Dünya müharibəsi illərində Köprülü İstanbula gələn türkoloqlarla görüşmüşdü: ədəbiyyat fakültəsidə Ural-Altay tüsrk dillərinin müqayisəli qrammatikası kursunu tədris edən Vilhelm Fridrix Karl Gisze, fransız türkloqu Jan Deni, Rus türkoloqu Vladimir Qardlevski (A.Qardlevski Birinci Dünya müharibəsindən öncə İstanbulda elmi tədqiqat aparırdı), dostu Macar türkloqu türk soylu Karacson ilə səmimi münasibərləri olmuşdur (Akun, 2003: 477).

Dahi alim azəri türkcəsinin Şəki, Bakı, Gəncə, Qarabağ, Təbriz, Urmiya, Ərdəbil dialektləri ilə bağlı tədqiqat işləri vardır. Cənubi Azərbaycanda yaşayan türksoylu qaşqayların ləhcəsinin digərlərindən daha fərqli olduğunu qeyd etmişdir. Görkəmli tədqiqatçı İranda yaşayan türklərin şivələrində ərəb, fars dillərinin təsiri özünü göstərməklə yanaşı, fars ləhcələrində, hətta fars ədəbi dilində türk dilinin təsiri nəzərə çarpdığını qeyd etmişdir.

F.Köprülü İraq türklərinin, Şərqi Anadolu şivələrinin də Qafqaz türklərinin ləhcələrinə oxşar olduğunu açıqlamışdır (Azəri, 2000: 28).

1920-21-ci illərdə, Qurtuluş savaşı illərində görkəmli türkoloq "Türk ədəbiyyatı tarixi", 1923-cü ildə "Türkiyə tarixi" kitablarını nəşr etdirmişdi. Bu kitablara görə M.K.Atatürk əlyazma ilə F.Köprülüyə təbrik məktubu göndərmişdi.

Dünya şöhrətli alim 1925-ci ildə Sovetlər birliyinin Elmlər Akademiyası tərəfindən Akademiyanın 200 illik yubileyində Türkiyəni təmsil etmiş, Elmi xidmətlərinə görə SSRİ Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Tanınmış türkoloq M.F.Köprülü 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultaya F.O.Bartoldla birlikdə gəlmiş (F.O.Bartold bu illərdə türkoloji araşdırmalar üçün Türkşünaslıq universitetinə dəvət edilmişdi), 26 fevral – 6 mart tarixində keçirilən Beynəlxalq Konqresdə "Türk xalqlarının ədəbi dilinin inkişafı" adlı məqalə ilə çıxış etmişdir. F.Köprülü artıq dünya şöhrətli alim, türkoloq kimi tanınır, elmi araşdırmaları bir çox xarici universitetlər tərəfindən maraqla qarşılanırdı (Akun, 2003: 477).

Bu illərdə M.F.Köprülü elmi xidmətlərinə görə Haydelberq Universiteti, Oksford Şərqşünaslar İnstitutu, Xarkov Şərqşünaslıq İnstitutu konfranslarına dəvət etmişdilər. 1939-cu ildə Sorbon Universiteti F.Köprülünü Sorbona dəvət etmiş, ona elmi xidmətlərinə görə Sorbon Universitetinin fəxri doktoru adı verilmişdir. Tədqiqatçı bu dönəmdə Türkiyədə keçirilən I Türk Dili Qurultayında (1931), I Türk Tarix Qurultayında (1939) fəal iştirak etmişdir. Tədqiqatlarında türk xalqlarının ədəbiyyatına xüsusi əhəmiyyət verərək bu mənbələri, eləcə də Azərbaycan ədəbiyyatını geniş şəkildə araşdırmışdır. Dahi alim Azərbaycan ədəbiyyatına dair İ.Həsənoğlunun həyat və yaradıcılığına həsr ounmuş "Ən əski türk azəri şairi Həsənoğlu", Füzulinin poetikasına aid "Külliyati-Füzuli", "Azərbaycan ədəbiyyatına aid tədqiqlər" əsərləri ilə Azərbaycanda məşhurlaşmışdı. Dahi türkoloqun Orta Asiya Türk xalqları ədəbiyyatı, türklərin tarixi, etnoqrafiyası, dil tarixi, tarixi terminologiya, türkologiya tarixi, həmçinin türk sənət tarixi, türk tikmə tarixi, klassik türk musiqiləri və s. sahələri əhatə edən araşdırmaları türkologiya üçün böyük əhəmiyyətə malikdir. Tədqiqatçı bu mövzuları türk və orta əsr islam tarixi ümumi çərçivəsi daxilində araşdırmışdır. F.Köprülü bu tədqiqatlarını türk mədəniyyətini, incəsənətini Qərb dünyasına, türklüyün rolunu inkar etməsinə, onu görməməzliyə vurmasına mane olmaq məqsədilə aparmışdı. Dahi alim bütün mədəniyyətlərin qaynağını Orta Asiya mədəniyyətində görmüş, qərbə türk axınlarını, orada məskunlaşmalarını özünəməxsus şəkildə izah etmişdir (Akun, 2003: 480).

O, 1941-ci ildən ömrünün sonunadək İslam Ensiklopediyasının redaksiya heyətində çalışmış, 1934-cü ildə Tehranda Ə.Firdovsinin anadan olmasının 1000 illiyinə həsr olunan yubileydə Türkiyəni layiqincə təmsil etmiş, böyük alim 1935-ci ildə Osmanlı İmperiyasının dövlət quruluşu ilə bağlı məruzə etmək üşün Parisə dəvət almış, orada fransiz dilində 3 məruzə ilə çıxış etmiş, 1939-cu ildə Sorbon Universiteti tərəfindən fəxri doktorluq dərəcəsi ilə mükafatlandırılmışdır. Köprülü 1937-ci ildə Afina Universitetinin fəxri doktoru, müxbir üzv, 1939-cu ildə Macarıstan EA-nın üzvü, 1947-ci ildə Amerika Şərq cəmiyyətinin fəxri üzü adına layiq görülmüşdür.

50-ci illərdə o, Türkiyənin siyasi həyatında da önəmli vəzifələrdə, Xarici İşlər Naziri, Baş nazir müavini vəzifələrində çalışmışdır. 1951-ci ildə Xarici İşlər Naziri kimi Beynəlxalq Şərqşünaslar Konqrensinin keçirilməsində mühüm rol oynamış, Konqresdə açılış nitqi söyləmişdir.

Dünya şöhrətli alim 1959-cu ildə Amerika Tarix Cəmiyyətinin Fəxri üzvü, 1964-cü ildə Macarıstan EA-nın müxbir üzvü seçilmişdir (Akun, 2003: 478).

Türkiyat İnstitutuna dünya şöhrətli türkoloqlar rəhbərlik etmişlər: Prof. Fuat Köprülü, Prof. Reşit Rahmet Arat, Prof. İsmail Hikmət Ertaylan, Prof. Cavid Baysun, Prof. Fahir İz, Prof. Əhməd Caferoğlu, Prof. Mehmet Kaplan, Prof. Sadettin Buluc, Prof. Mehmet Kaplan (2

dəfə), Prof. Əli Alparslan, Prof. Mertol Tulum, Prof. Kamal Eraslan, Prof. Mertol Tulum (2 dəfə), Prof. Osman F. Sertkaya (4 dəfə) (Özkan, 2006: 591).

Köprülüdən sonra Türkiyyət İnstitunun direktoru əslən tatar türkü Reşit Rahmet Arat olmuşdur. O, Kazanda doğulmuş, ilk təhsilini Kazanda və Qazaxstanda, ali təhsilini isə Almaniyada almış, uyğur mətnlərini yəsnif edərək nəşr etdirmişdir. Belin Universitetində, Prussiya Elmlər Akademiyasında çalışmış, 1933-cü ildə İstanbul Universitetinə dəvət olunur, əski türk dili kaffedrasının professoru kimi çalışır. Tanınmış türkoloq M.Erginin müəllimi olmuşdur (Rehmet Arat, https://tr.wikipedia.org/wiki/Re%C5%9Fit_Rahmeti_Arat).

Türkiyyət İnstitunun direktorlarından biri İstanbulda yaşayan azərbaycanlı mühacir dünya şöhrətli türkoloq Ə.Cəfəroğlu olmuşdur. Əhməd Cəfəroğlu könüllü olaraq Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam ordusunda 1918-ci il sentyabrın 15-də Bakının daşnak və bolşevik işğalından azad edilməsində kiçik zabit kimi iştirak etmişdir. 1919-cu ildə Əhməd Cəfəroğlu Bakı Universitetinin Tarix-filologiya fakültəsinə (Şərqşünaslıq) daxil olmuş, lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Ə.Cəfəroğlu Gürcüstana, oradan da Türkiyəyə getmişdir. O, İstanbul Universitetinin Dil-ədəbiyyat fakültəsinə daxil olmuşdu. Məşhur türkoloq Mehmet Fuad Köprülünün tələbəsi idi. 1925-ci ildə universiteti bitirmişir. Türkiyyat Araşdırmaları İnstitutunda çalışan Ə.Cəfəroğlu 1925-ci ildə Almaniya getmiş, əvvəlcə Berlin, sonra isə Breslau Universitetində türkologiya üzrə təhsil almışdır. V.Banq Kaup, A.Fon Le Koç, Vasmer,Vesterman, F.Gize, Karl Brokelmanın tələbəsi olmuşdur (Cəfəroğlu, https://az.wikipedia.org/wiki/Əhməd_Cəfəroğlu).

1929-cu ildə Cəfəroğlu Breslau Universitetində məşhur şərqşünas Fridrix Gizenin rəhbərliyi altında "Gəncə dialektində 75 Azərbaycan bayatı-türküsü - Bir dil araşdırması ilə" mövzusunda dissertasiyanı müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsini almışdır. Ə.Cəfəroğlunun bu əsəri sonra Berlində kitab şəklində nəşr olunmuşdur. O, Türkiyəyə qayıdaraq İstanbul Universiteti Türk dili və ədəbiyyatı kafedrasında professoru, sonra bu kafedranın müdiri olmuşdur. Ə.Cəfəroğlu türkologiyada sanballı tədqiqatları ilə tanınan alimdir. Tədqiqatçı türk dillərinin dialekt və etimologiyasına aid 350-dən artıq elmi məqalə yazmışdır.

Böyük türkoloq Polşa Şərqşünaslar Cəmiyyətinə üzv, Polşa Elmlər Akademiyasına müxbir üzv, Macarıstan Elmlər Akademiyasına üzv, Ukrayna Elmlər Akademiyasına müxbir üzv, Ural-Altay Cəmiyyətinə üzv, Buenos-Ayresdəki "Turan" cəmiyyətinə fəxri üzv seçilmişdir. İspaniya Hökuməti tərəfindən "De Alfonso X El Sabio" nişanı ilə təltif edilmişdir. Beynəlxalq Onomastika Cəmiyyətinin Türkiyə nümayəndəsi, Latın Linqivistika Cəmiyyətinin Türkiyə təmsilçisi seçilmişdir. Ə.Cəfəroğlu yarandığı gündən Türk Dil Qurumunun üzvü olmuşdur. O, həmçinin Avropanın aparıcı universitetlərində, Roma universitetində də çalışmış, dünyanın ən məşhur elmi cəmiyyətlərinin, akademiyalarının üzvü olmuş, türkoloji dilçiliklə bağlı maraqlı mühazirələr etmişdir.

Cəfəroğlu Azərbaycanı dünyaya tanıtmaq üçün İstanbulda "Azərbaycan Yurd Bilgisi" jurnalını da nəşr etmiş, Avropada, xüsusilə Türkiyədə azərbaycanşünaslıq elminin təməlini inkişafında mühüm rolu olmuşdur. Dahi alim müxtəlif illərdə "Türk amacı" dərgisinin, "Türk dili və ədəbiyyatı" məcmuəsinin redaktoru olmuş, tədqiqatçı (TM, TDAY, TKA, Bollettino, Annali, Eİ, Onoma, Orbis, Oriens, RO, RİEB, MSOS, UAJb, No) bir çox beynəlxalq səviyyəli jurnallarda məqalələri ilə çıxış etmişdir. O, türk dili tarixi, əski türk şivələri, türk onomastikası, Azərbaycan dili, ədəbiyyatı və dialektologiyası, Anadolu türkcəsi və dialektologiyası, türk xalqları və digər mövzularda dəyərli məqalələr yazmışdır.Rus, alman, fransız dillərini bilən Ə.Cəfəroğlu bir çox beynəlxalq elmi təşkilatların üzvü seçilmiş, təqaüdə çıxana qədər İstanbul Universiteti Ədəbiyyat fakültəsi Türkiyat Araşdırmaları İnstitutunun direktoru vəzifəsində çalışmışdır.

Cəfəroğlu 25-dən çox kitabın, 380-ə yaxın elmi məqalənin müəllifidir. Türkologiyanın müxtəlif sahələrində araşdırmalar aparmışdır. Cəfəroğlu türkologiya üçün mühüm əhəmiyyətə

malik kitabların müəllifidir: "Türk dili tarixi I" və "Türk dili tarixi II". Azərbaycan türkcəsinə xüsusi önəm verən, Gəncə dialektindən dissertasiya yazan Ə.Cəfəroğlu sonralar da bu sahədə önəmli tədqiqatlar aparmışdır. "Azərbaycan türkcəsi sözlüyü" adlı hələ də çap olunmamışdır. Bundan başqa, G.Dörferlə birlikdə yazdığı "Philologiae Turcicae Fundamenta" əsərinin "Azərbaycan dili" və "Azərbaycan ədəbiyyatı" hissələri azəri türkoloqa məxsusdur.

Tədqiqatçı Türk lüğətçiliyini Mahmud Kaşğaridən başlayaraq Anadolu türkcəsinin son dövrlərinə qədər geniş şəkildə araşdırmış, Qıpçaq və çağatay lüğətçilik məktəbi haqqında tədqiqatını "Türk dili tarixi", "Əski uyğur türkcəsi sözlüyü" kitablarında nəşr etmişdir. adı ilə yenidən nəşr etmişdir.

Cəfəroğlunun 25 ildən çox müddətdə Anadolunu gəzərək topladığı mətnləri "Anadolu dialektlərindən seçmələr" adı altında doqquz kitab nəşr etmişdir. Bu kitabda 41 vilayət və 5 rayonun dialekt materiallarını toplamışdır. Cəfəroğlu, həmçinin göytürk və uyğur dövrü ilə, onomastika və üslubiyyatla və digər sahələrlə bağlı çox əhəmiyyətli araşdırmalar aparmışdır (İbrahimov, 2019: 20).

Türkiyat İnstitutu yarandığı ilk illərdən başlayaraq, 1925-ci ilin avqustundan "Türkiyət" jurnalı nəşr olundu. Jurnalda Türk dili, türk ədəbiyyatı, türk tarixi, türk coğrafiyası və digər sahələrlə bağlı yerli və xarici alimlərin rəy və tədqiqatları, həmçinin Avropada, Asiyada türkoloji araşdırmalara dair xəbərlər, dəyərli məqalələr beynəlxalq standartlara uyğun şəkildə dərc olunurdu. Məcmuə türk, Azərbaycan, qazax, qırğız, özbək, türkmən, tatar, eləcə də Avropa dillərində, fransız, alman, ingilis, rus dillərində mütəmadi şəkildə nəşr olunurdu (7). Jurnal 1995-ci ilə qədər 20 nömrə dərc etdirmişdir (Özkan, 2006: 588).

1950-ci ildən sonra Türkşünaslıq İnstitutunun fəaliyyətində birdurğunluq müşahidə olunur. 1973-cü ildə Cümhuriyyətin 50 illik yubileyi ilə əlaqədar keçirilən Beynəlxalq Türkologiya Konqresi institutun fəaliyyətini canlandırdı. Bundan sonra 1977-ci ildən başlayaraq hər üç ildən bir Beynəlxalq Türkologiya konfransı, hər il isə milli Türkologiya konfransı keçirilməsi qərara alındı və 1977-ci ildən başlayaraq hər üç ildən bir beynəlxalq türkologiya konfransı, hər il isə milli türkologiya konfransı keçirildi. Bu qurultaylar 1988-ci ilə qədər fasiləsiz təşkil olundu.

Bu illərdə 6 beynəlxalq, 8 milli olmaqla 14 konqres təşkil olunmuşdur. Türkşünaslıq İnstitunun hərtərəfli fəaliyyəti Türkiyəni dünya türkologiyasının mərkəzinə çevirmişdir (Özkan, 2006: 590). Türkşünaslıq İnstitutu Türkiyə Respublikasında Nazirlər Şurasının qərarı ilə yaradılmış ilk və yeganə elmi qurumdur.

İnstitut 1924-1982-ci illərdə Türkşünaslıq İnstitutu adı altında fəaliyyətini davam etdirmiş, 1982-1991-ci illər arasında 2547 saylı Universitetlər Qanununa uyğun olaraq, Türkşünaslıq Araşdırma Mərkəzi kimi fəaliyyət göstərmişdir. 24 yanvar 1991-ci ildə Rəsmi Qəzetdə dərc edilən 3699 saylı qanunla İstanbul Universiteti Rektorluğuna tabe olmuş və Türkşünaslıq Araşdırma İnstitutu adlandırılmışdır.

Türkşünaslıq İnstitutunun əsas tədqiqat sahəsi türk dili və ədəbiyyatı sahəsi olsa da, 3699 saylı qanunla Türkşünaslıq İnstitutunun əsas təhsil sahəsi üç şöbə olaraq müəyyən edilmişdir: Türk dili və ədəbiyyatı, türk tarixi və türk incəsənəti (Özkan, 2006: 591).

Bu gün Türkiyədə Hacettepe Universiteti, Atatürk Universiteti, Mərmərə Universiteti, Səlcuq Universiteti və Çankırı Karatekin Universiteti daxil olmaqla ümumilikdə Türkşünaslıq İnstitutu fəaliyyət göstərir.

Nəticə

İstanbul Universitetinin nəzdində Türkiyat İnstitutunun hərtərəfli, gərgin əməyi sayəsində Türkiyədə və bir çox ölkələrdə türkologiyaya maraq artdı. Odur ki, Son illərdə Yaponiyadan ABŞ-a qədər xarici ölkələrdə türkçülük sahəsində araşdırmalara böyük önəm verilir. Xarici ölkələrdə türkşünaslıq elmi ilə məşğul olan institutların və tədqiqat mərkəzlərinin mövcudluğu qədim tarixə, geniş coğrafiyaya malik türklərin mədəniyyəti və

incəsənəti ilə bağlı araşdırmalar artmasının sübutudur. Bu istiqamətdə aparılan işlərdə Türkşünaslıq Araşdırma İnstitutunun fəaliyyəti danılmazdır.

ƏDƏBİYYAT

Akalın, Şükrü (2004). "Atatürk'ün dil politikası". *BAL-TAM Türklük Bilgisi*, Prizren, Eylül 1(1).

Akun, Ömər (2003). "Mehmet Fuad Köpülü Köprülü". *TDV İslam Ansiklopedisi*, C.28, Ankara, s.471-486.

Arat, R.R., https://tr.wikipedia.org/wiki/Reşit_Rahmeti_Arat

Cəfəroğlu Əhməd, https://az.wikipedia.org/wiki/Əhməd_Cəfəroğlu

İbrahimov, Elçin (2019). Dünya türkologiyasında müstəsna imza - Əhməd Cəfəroğlu.

Katanov, Nikolay, https://az.wikipedia.org/wiki/Nikolay_Katanov

Köprülü, F. (2000). Buludxan Xəlilov, Mirzə Ənsərli (Ləmbəli). Azəri. Bakı. "Elm" 525-ci qəzet.- 2019.- 29 dekabr.- S.20.

Özkan, Mustafa (2006). İstanbul Üniversitesi Türkiyat Enstitüsü Türkiye Araştırmaları Literatür Dergisi, 4(8): 585-592.